| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKKƏND TƏSƏRRÜFATI NAZİRLİYİNİN KOLLEGİYASININ QƏRARI |
| Qəbul edildiyi tarix | 26.04.2019 |
| Qeydiyyat nömrəsi | Q-08-19 |
| Adı | "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın təsdiq edilməsi barədə |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 03.05.2019 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 150.010.000 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201904260819 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 02.05.2019 |

"Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanının 7.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 20 aprel tarixli 226 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi haqqında Əsasnamə"nin 12.2-ci bəndini rəhbər tutaraq Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyası

**QƏRARA ALIR:**

**1.** "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı" təsdiq edilsin **(əlavə olunur)**.

**2.** Azərbaycan RespublikasıKənd Təsərrüfatı Nazirliyi Aparatının Hüquq şöbəsi bu qərarın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün 3 gün müddətində Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

**3.** B uqərarın icrasına nəzarət Azərbaycan Respublikası kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimovaya tapşırılsın.

**Kollegiyanın sədri,**

**Nazir** **İnam Kərimov**

*Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi Kollegiyasının 2019-cu il " 26" aprel tarixli "Q-08- 19" nömrəli qərarı ilə təsdiq edilmişdir*

**Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların**

**S İ Y A H I S I**

| № | Kənd təsərrüfatı texnikasının təyinatı | Texnika və texnoloji avadanlıqlar |
|---|---|---|

| | | |
|---|---|---|
| **1** | Traktor ~~və ekskavator~~ (təkərli və tırtıllı)[1] | 1.1. Ümumi təyinatlı kənd təsərrüfatı traktoru<br>1.2. Xüsusi təyinatlı kənd təsərrüfatı traktoru<br>1.3. Universal becərmə traktorları<br>1.4. Minitraktor<br>~~1.5. Yükləyici ekskavator~~[2] |
| **2** | Torpaq hazırlama və becərmə texnikası | 2.1. Kotan<br>2.2. Riper<br>2.3. Kultivator<br>2.4. Mala<br>2.5. Daştəmizləyən və ya daşxırdalayan<br>2.6. Çalaqazan<br>2.7. Bitki qalıqlarını xırdalayan<br>2.8. Kanalaçanlar və suvarma şırımı açan<br>2.9. Tirədüzəldən<br>2.10. Çoxillik meyvə, giləmeyvə və çay bitkilərinin çətirinin yaş və quru budanmasında istifadə edilən texnika |
| **3** | Səpin və əkin texnikası | 3.1. Toxumsəpən<br>3.2. Kombinəedilmiş toxumsəpən aqreqat<br>3.3. Şitiləkən<br>3.4. Kartofəkən<br>3.5. Meyvə tingi əkən maşın və qoşqu<br>3.6. Şitil hazırlayan konveyer |
| **4** | Biçin və yığım texnikası, maşın və qoşquları | 4.1. Dənli bitkiləri biçən kombayn və xeder*, kombayna qoşulan samandoğrayan*[3]<br>4.2. Pambıqyığan kombayn, maşın və qoşqu<br>4.3. Şəkərçuğunduru yığan kombayn, maşın və qoşqu<br>4.4. Kartofyığan kombayn, maşın və qoşqu<br>4.5. Tərəvəzyığan kombayn, maşın və qoşqular *(məhsul yığımı üçün hündürlüyü 5 metrdən artıq olmayan platforma)*[4]<br>4.6. Bağçılıqda istifadə olunan kombayn və yığım maşını (platforma)<br>4.7. Bitkilərin yerüstü kütləsinin biçilməsində və yığılmasında istifadə edilən texnika<br>4.8. Traktor qoşqusu (yedək)<br>4.9. Xüsusi təyinatlı qoşqu (heyvandaşıyan, dərman və gübrə daşıyan, rulon pres daşıyan, *kənd təsərrüfatı təyinatlı çənlər, o cümlədən tutumu 5 tondan artıq olmayan yanacaq çənləri*)[5] |
| **5** | Gübrəsəpən və hazırlayan maşın, avadanlıq və qoşqular | 5.1. Bərk mineral və üzvi gübrəsəpən<br>5.2. Maye mineral və üzvi gübrəsəpən<br>5.3. Üzvi gübrə *və biogübrə* hazırlayan maşın və avadanlıq[6] |
| **6** | Bitki mühafizəsi maşın və avadanlığı | 6.1. Çiləyici<br>6.2. Tozlayıcı<br>*6.3. Bitkilərin iqlim təsirlərindən mühafizəsi üçün istifadə olunan texnoloji avadanlıq*[7] |
| **7** | Suvarma sistemləri dəsti və *suvarma avadanlığı*[8] | 7.1. Pivot tipli suvarma sistemi<br>7.2. Damcılı və yağış yağdırma tipli suvarma sistemi<br>7.3. Barabanlı (tamburlu) suvarma sistemi<br>*7.4. Suvarmada istifadə olunan dizel mühərrikli səyyar su nasosları*[9] |
| **8** | İlkin emal avadanlığı | 8.1. Taxılyükləyən<br>~~8.2. Toxumqurudan~~[10]<br>8.3. Qərzəkli meyvə təmizləyən maşın<br>8.4. Məhsulun ~~və toxumun~~ təmizlənməsi, çeşidlənməsi və kalibrlənməsi üçün maşın[11]<br>8.5. Meyvə, tütün, çay və digər kənd təsərrüfatı məhsullarını qurudan maşın, avadanlıq və qurğular |

| | | |
|---|---|---|
| **9** | Heyvandarlıqda və quşçuluqda istifadə olunan texnika, maşın, avadanlıq, aqreqat və qurğular | 9.1. Süd sağım avadanlıq və aqreqatları<br>9.2. Qırxım aqreqatları<br>9.3. Üzvi gübrə separatorları<br>9.4. Fermanı üzvi tullantılardan təmizləyən avadanlıq<br>9.5. Qaşıma fırçası<br>*9.6. İribuynuzlu və xırdabuynuzlu heyvanların saxlanması üçün qurğu və avadanlıq*[12]<br>9.7. Quş qəfəsləri<br>9.8. İnkubator dəstləri |
| **10** | Yem istehsalında, tədarükündə və yemləmədə istifadə olunan maşın, avadanlıq və texnika | 10.1. Otbiçən kombayn və maşın<br>10.2. Senaj və silos hazırlanmasında istifadə olunan kombayn və qoşqu<br>10.3. Dırmıq<br>10.4. Yığıb-presbağlayan və presi polietilen örtüyə bükən maşın<br>10.5. Yükləyici<br>10.6. Otçevirən, yandırmıqlı və samanqarışdıran texnika<br>10.7. Asılan, qoşulan və özüyeriyən tipli xırdalayıcı, qarışdırıcı və paylayıcı<br>10.8. Yem istehsal edən texnoloji avadanlıq *dəsti*[13]<br>*10.9. Yaşıl yem yetişdirən texnoloji avadanlıq*[14] |
| **11** | İnnovativ texnika və texnoloji avadanlıq | 11.1. Kənd təsərrüfatında istifadə üçün nəzərdə tutulmuş dronlar, robot texnikası və ağıllı idarəetmə üzrə texnoloji avadanlıq<br>11.2. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin layihələrində istifadə olunan kənd təsərrüfatı təyinatlı innovativ texnika və texnoloji avadanlıqlar |
| *12.* [15] | *Kənd təsərrüfatı məhsullarının saxlanması üçün istifadə olunan avadanlıq* | *12.1. Həcmi 7000 kubmetrdən artıq olmayan meyvə-tərəvəz üçün soyuducu anbar dəstləri*<br>*12.2. Həcmi 6000 kubmetrdən artıq olmayan kartof üçün soyuducu anbar dəstləri*<br>*12.3. Soyuducu anbar təyinatlı texnoloji avadanlıqlar*[16]<br>*12.4. Həcmi 3000 kubmetrdən artıq olmayan heyvandarlıq məhsullarının saxlanması üçün avadanlıq və soyuducular*[17]<br>*12.5. Həcmi 5 tondan artıq olmayan süd çəni*[18] |
| *13.* | *Toxumun emalında istifadə olunan maşın və avadanlıq* | *13.1.Toxumun təmizlənməsi, çeşidlənməsi və kalibrlənməsi üçün maşın və avadanlıq*<br>*13.2. Toxumun qurudulması üçün maşın və avadanlıq*<br>*13.3. Toxumun dərmanlanması, astarlanması və qablaşdırılması üçün maşın və avadanlıq*[19] |

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 10 iyul 2019-cu il tarixli **Q-10-19** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201907101019, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 17 iyul 2019-cu il)**
2. 23 oktyabr 2020-ci il tarixli **Q-02-20** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il)**
3. 29 sentyabr 2021-ci il tarixli **Q-06-21** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il)**


## QƏRARA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI

[1] 23 oktyabr 2020-ci il tarixli **Q-02-20** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı **(Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il)** ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 1-ci hissənin "Kənd təsərrüfatı texnikasının təyinatı" sütunundan "**və ekskavator**" sözləri çıxarılmışdır.

[2] -23 oktyabr 2020-ci il tarixli Q-02-20 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 1-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 1.5-ci bəndi ləğv edilmişdir.

[3] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 4-cü hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 4.1-ci bəndə "**xeder**" sözündən sonra "**, kombayna qoşulan samandoğrayan**" sözləri əlavə edilmişdir.

[4] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 4-cü hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 4.5-ci bəndə "**qoşqular**" sözündən sonra "**(məhsul yığımı üçün hündürlüyü 5 metrdən artıq olmayan platforma)**" sözləri əlavə edilmişdir.

[5] -23 oktyabr 2020-ci il tarixli Q-02-20 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 4-cü hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 4.9-cu bəndində "**müxtəlif təyinatlı çənlər**" sözləri "**kənd təsərrüfatı təyinatlı çən**" sözləri ilə əvəz edilmişdir.

29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 4-cü hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 4.9-cu bənddə "**çən**" sözü "**çənlər, o cümlədən tutumu 5 tondan artıq olmayan yanacaq çənləri**" sözləri ilə əvəz edilmişdir.

[6] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 5-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 5.3-cü bəndinə "**gübrə**" sözündən sonra "**və biogübrə**" sözləri əlavə edilmişdir.

[7] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 6-cı hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 6.3-cü bəndi yeni redaksiyada verilmişdir.

əvvəlki redaksiyada deyilirdi:

~~6.3 Toxumdərmanlayan~~

[8] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 7-ci hissəsinin "Kənd təsərrüfatı texnikasının təyinatı" sütununa "**dəsti və**" sözlərindən sonra "**suvarma**" sözü əlavə edilmişdir.

[9] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 7-ci hissəsinin "Texnika və texnoloji avadanlıqlar" sütununa yeni məzmunda 7.4-cü bənd əlavə edilmişdir.

[10] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 8-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 8.2-ci bənd ləğv edilmişdir.

[11] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 8-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 8.4-cü bənddən "**və toxumun**" sözləri çıxarılmışdır.

[12] -23 oktyabr 2020-ci il tarixli Q-02-20 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 9-cu hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 9.6-cı bəndi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~9.6. Heyvan saxlanılan qurğu və avadanlıq~~

[13] -29 sentyabr 2021-ci il tarixli Q-06-21 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 10-cu hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 10.8-ci bəndinə "**avadanlıq**" sözündən sonra "**dəsti**" sözü əlavə edilmişdir.

[14] -23 oktyabr 2020-ci il tarixli Q-02-20 nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il**) ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 10-cu hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununa yeni məzmunda 10.9-cu bənd əlavə edilmişdir.

[15]-10 iyul 2019-cu il tarixli **Q-10-19** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15201907101019, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 17 iyul 2019-cu i**l ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"na yeni məzmunda 12-ci hissə əlavə edilmişdir.

[16]-29 sentyabr 2021-ci il tarixli **Q-06-21** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 12-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütununun 12.3-cü bəndinin "**üçün**" sözü "**təyinatlı**" sözü ilə əvəz edilmişdir.

[17]-23 oktyabr 2020-ci il tarixli **Q-02-20** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202010230220, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 3 noyabr 2020-ci il**ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nda 12-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütunu yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

| | |
|---|---|
| *~~12.~~* | *~~12.1. Meyvə-tərəvəz və kartof üçün soyuducu anbar dəstləri~~*<br>*~~12.2. Soyuducu anbar üçün texnoloji avadanlıqlar~~*<br>*~~12.3. Heyvandarlıq məhsullarının saxlanması üçün avadanlıq və soyuducular~~* |

[18]-29 sentyabr 2021-ci il tarixli **Q-06-21** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"nın 12-ci hissənin "Texnika və texnoloji avadanlıqlar" sütuna yeni məzmunda 12.5-ci bənd əlavə edilmişdir.

[19]-29 sentyabr 2021-ci il tarixli **Q-06-21** nömrəli Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Kollegiyasının Qərarı (**Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi 15202109290621, Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix 12 oktyabr 2021-ci il**ilə "Aqrar sahədə güzəşt tətbiq ediləcək texnikaların Siyahısı"na yeni məzmunda 13-cü hissə əlavə edilmişdir.

© | E-qanun.az | Bütün Haqqlar Qorunur Developed by: Ədliyyə Nazirliyinin İnformasiya - kommunikasiya Texnologiyaları İdarəsi / CROCUSOFT